Kaspi.-2017.-28-30 yanvar.-S.24..

# DÜNYAYA OBRAZLI BAXIŞ

*Gənc rəssam Günay Mehdizadənin yaradıcılıq axtarışları haqqında*



Ziyadxan Əliyev

Çağdaş təsviri sənət məkanımızda baş verən bədii proseslərin ənənə və müasirlik probleminin həlli kontekstində getməsinin qarşılığında, nəticə olaraq davamlı şəkil alan yaradıcılıq rəqabətinin yeni adlar ortaya çıxardığını söyləmək lazımdır. Demək olar ki, rəssamlığın bütün növlərində milli incəsənətimizin bədii-mənəvi yükünü gələcəyə daşıya biləcək yaradıcılar yetişməkdədir. Belə gənclərdən biri də müstəqillik dövrü rəngkarlığımızın yeni çalarlarla zənginləşdirilməsinə özünəməxsus töhfələr verən Günay Mehdizadədir.

Rəssamın əsərləri ilə tanışlıqdan gəlinən ilk nəticə onun milli dəyərlərimizdə hifz olunan bədii məziyyətlərin çox zəngin tutumlu, bədii çalar baxımından çoxqatlı olmasına əminliyidir. İndiki durumda Günay Mehdizadənin müxtəlif mövzulu əsərlərində həmin əski ənənələrə yaxınlıq, onların müasir təfsirinə özünəməxsus meyil duyulur. Ən maraqlısı gənc rəssamın cəmi altı-yeddi ili əhatə edən yaradıcılığında öz bədii axtarışlarını yeni-yeni bədii keyfiyyətlərlə zənginləşdirməsidir. Belə ki, əgər o, miniatür üslubuna tapınan axtarışlarında əvvəlcə formaların daha bütövlüyünə, rənglərin dekorativ-lakonik biçiminə meyilli idisə, sonrakı dövr əsərlərində bu bədii keyfiyyətləri forma-biçimin "paralanmış" hissələrinin məcmusunun yaratdığı bədii-estetik tutumla nail olmuşdur. Onun "Ailə", "Nənə", "Qonşular", "Məhsul bayramı", "Mahnı", "Nar nağılı", "Küpələr", "Novruz", "Rəqs", "Mis qablar" və "Gənclik" lövhələrində qeyd etdiyimiz birinci mərhələnin bədii-estetik dəyərlərini görmək mümkündür.

Günay Mehdizadənin az sonra yaratdığı əsərlərdə isə biz müxtəlif görüntülərin bədii təqdimatında onun əvvəlki işlərində müşahidə etdiyimiz geniş ümumiləşdirmələri məqsədli şəkildə paralanmağa yönəltməklə, onların çox təsirli və ifadəli məcmusuna nail olunduğunu görürük. Həmin əsərlərin özündə mənzərə və natürmort janrını əhatə etməsi də diqqətçəkəndir. Elə onların adlarından da ("Qırmızı ağaclar", "Meyvələrlə natürmort", "Güllər", "Güldanla natürmort", "Nar və ağ küzələr", "Qədim qablar" və s.) bunu görmək mümkündür.

Öz yaradıcılığında müxtəlif janrlara geniş yer ayıran Günay Mehdizadənin bədii irsini təşkil edən portretlər özünəməxsus bədii-estetik məziyyətlərə malikdir. Bu da ilk növbədə rəssamın ərsəyə gətirdiyi müxtəlif forma-biçimli portretlərdə qarşısına fərqli yaradıcı vəzifələr qoyması ilə bağlıdır. Bunu şərtləndirən səbəblərdən biri də portretlərin müxtəlif miqyaslı şəxsiyyətlərlə, yaxın və uzaq tarixlə bağlı olmasıdır. Rəssamın son dövrlərdə yaratdığı "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin portreti", "Mustafa Kamal Atatürk", "Rəssam Bəhruz bəy Kəngərli", "Mis qablarla avtoportret", "Narlarla avtoportret" və s. əsərləri onun müxtəlif taleli və ruhlu insanların mənəvi-psixoloji dünyalarına bədii tutum vermək bacarığını əyaniləşdirir.



Xocalı



Heydər Əliyev



Atatürk



Bəhruz bəy Kəngərli

Rəssamın Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə həsr etdiyi kompozisiya - portretdə də obrazın əhatəli ifadəsini görmək mümkündür. Üçrəngli milli bayrağın fonunda görüntüyə gətirilən görkəmli dövlət xadiminin obrazında onun şəxsiyyətinin miqyasına müvafiq qürur və möhtəşəmlik duyulmaqdadır. Portretin fonunda Azərbaycanın qədim və müasir memarlıq abidələrinin təsviri də uğurlu bədii əlavə olmaqla, həyatını müasir Azərbaycanda baş verən quruculuq işlərinə və onun müstəqilliyinin möhkəmləndirilməsinə həsr etmiş ulu öndərin əcdadlarımızın qurub-yaratmaq ənənəsini davam etdirdiyinə işarədir. Ulu öndərin parlaq boyalarla işlənmiş portreti işıqlı yerlikdə qrafik cizgilərlə təsvir olunmuş tikililərin fonunda cəlbedici və yaddaqalandır...

Onun Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkə həsr etdiyi bir-neçə portretdə rəssamın obrazın hərtərəfli açımına və dolğun bədii təqdimatına maraq göstərdiyini görmək mümkündür. Atatürk şəxsiyyətinin və onu bu gün də yaşadan işıqlı əməllərinin vəhdətini bir araya gətirməklə, obrazın dolğunluğuna nail olmağa çalışan müəllif, son nəticədə millət fədaisinin yaddaqalan portretini ərsəyə gətirməyə nail olmuşdur. Gənc rəssamın çəkdiyi "Atatürkün portreti" əsərinin 2015-ci ildə görkəmli siyasətçi və dövlət xadiminin Ankaradakı ev-muzeyinin ekspozisiyasına daxil edilməsini onun böyük uğuru hesab etməklə yanaşı, bu əsərdə bu böyük şəxsiyyətin özünəməxsus portret-obrazının əks olunduğunu deməliyik. Ona əsasən memorial əşyaların yer aldığı muzey ekspozisiyasında saxlanılmasını və bu əsərin bu müqəddəs məkanda yeganə təsviri sənət nümunəsi olmasını da Azərbaycanlı rəssamın ustalığına verilən yüksək qiymət saymaq olar.



Günay Mehdizadə

Kətan üzərində yağlı boya ilə 2014-cü ildə çəkilmiş bu portret 80x60 sm ölçüsündədir. Kompozisiyanı Atatürkün obrazı və onun adı ilə bağlı müxtəlif tikililərin təsvirləri təşkil edir. Görkəmli dövlət xadiminin rənglərlə bədiiləşdirilmiş portreti ağ-qara incə cizgilərlə çəkilmiş memarlıq abidələrinin fonunda cəlbedici görünür .

Günay Mehdizadənin Atatürk ünvanlı digər portretlərində bu böyük şəxsiyyət fəaliyyəti ilə əlaqəli təsvir olunmuşdur. Belə əsərlərin birində Atatürk Türkiyə dövlətinin qurucusu və müdafiəçisi kimi təqdim edilmişdir. Ayrı-ayrı süjetli təsvirləri isti - sarımtıl-qəhvəyi çalarlarla ifadə edən rəssamın Atatürkü soyuq göy rəngli geyimdə görüntüyə gətirməsi, müəyyən təzad yaratmaqla yanaşı, həm də obrazın cəlbediciliyinə səbəb olmuşdur. Üfüqi kompozisiyada isti-soyuq rənglərin harmoniyasından uğurlu istifadəni də bu yerdə onun milli klassik bədii ənənələrdən yaradıcılıqla faydalanmasının nəticəsi saymaq olar. Şaquli formatlı digər bir portretdə isə Atatürkün Türkiyənin bir dövlət kimi möhkəmlənməsi yönündə gördüyü işlərə cəlbedici görkəm verilmiş, onların əlaqəli təsvirində görkəmli siyasətçinin milləti yolunda ömrünü şam kimi əritməsi yaddaqalan tutumda bədii-mənəvi qaynağa çevrilmişdir...

Günay Mehdizadə şaquli kompozisiya həllindən görkəmli Azərbaycan rəssamı Bəhruz bəy Kəngərliyə həsr olunmuş portretdə də istifadə etmişdir. Belə ki, cəmisi 30 il ömür sürməsinə baxmayaraq özündən sonra zəngin bədii irs qoyub getmiş gənc rəssam əsərlərində vəsf etdiyi təbiət motivləri və memarlıq abidələri, eləcə də çəkdiyi obrazlarla əlaqəli təqdim olunub. Rəssamın özünə həsr etdiyi bir-neçə "Avtoportret" də bədii həll baxımından diqqət çəkir. Digər bir "Avtoportret"də isə rəssam özünü milli mis qablarla vəhdətdə təsvir edib...

Günay Mehdizadənin son vaxtlar yaratdığı "Qarğaların rəqsi" və "Xocalı" kompozisiyalarında onun məna-məzmun yükünə görə daha miqyaslı əsərlər yaratmaq potensialını üzə çıxarmışdır. Qarğa xislətini onların rəqs-hərəkətlərində ifadə edən rəssam nə qədər fikir paralayıcıdırsa, XX əsrin ən dəhşətli qətliamlarından sayılan Xocalıya - şəhid şəhərə münasibətində duyulası dərəcədə ittihamedicidir. Düşmən əməllərini ifşa edən üfüqi kompozisiyada faciəni real və xəyali obrazlarla ifadə edən rəssam, qənaətimizcə, Azərbaycan rəssamlığında bu mövzuya həsr olunmuş yaddaqalan tablolardan birini yaratmağa nail olub. Çoxfiqurlu əsərdə şəhidin ucalığa qaldırılması, həlak olmuş ana-bala ruhunun duruşu, ahıl nənə ilə əli milli bayraqlı qız uşağının qələbəyə ümidli fiqurları və digər çoxsaylı təsvirlər düşmənə nifrət aşılayan bədii-psixoloji tutumuna görə diqqətçəkən və yaddaqalandırlar...